**_DOĞRUDANMI, MÜMKÜN DEYİL_**
**_VƏ YA BİR DAHA TEST HAQQINDA_**

Faktlar göstərir ki, məsələn, ədəbiyyat fənni üzrə (düşündürücü testlərin tətbiqinin bu fəndə mümkün olmaması fikri daha geniş yayılıb) əsərin məzmununa, kompozisiyasına, sənətkarlıq xüsusiyyətlərinə, obrazların təhlilinə və digər sahələrə aid testlər tərtib etmək mümkün və lazımdır.

Materialın şüurlu mənimsənildiyinə zəmanət verən hallardan biri də odur ki, abituriyent müxtəlif halları, anlayışları müqayisə edə bilsin və bu müqayisədən müvafiq nəticə çıxarmağı bacarsın. Məsələn, "alleqorik əsər" və "təmsil" anlayışları bəzən qarışdırılır. Hər iki anlayışın necə dərk edildiyini belə bir testlə yoxlamaq olar:

**_Alleqorik əsərlə təmsilin fərqi aşağıdakı hökmlərdən hansılarda düzgün şərh olunub?_**

1. **_"Alleqorik əsər" anlayışı "təmsil" anlayışından genişdir._**
2. **_"Təmsil" anlayışı "alleqorik əsər" anlayışından genişdir._**
3. **_"Alleqorik əsər" anlayışı ilə "təmsil" analyışı arasında heç bir fərq yoxdur._**
4. **_İnsani keyfiyyətlər alleqorik əsərlərdə bitkilərin və əşyaların, təmsildə isə heyvanların timsalında təsvir olunur._**
5. **_Alleqoriya məcazi ifadə növüdür və ondan təmsillərdə də geniş istifadə olunur._**

**_A – 2-cidə_**
**_B – 1 və 5-ci də_**
**_C – 4-cü də_**
**_D – 3-cü də_**
**_E – heç birində_**

Eyni yolla ayrı-ayrı obrazların, əsərin məzmun və ideya baxımından nə dərəcədə mənimsənildiyini də yoxlamaq olar. Belə testləri eyni əsərdə müxtəlif obrazların və ya müxtəlif əsərlərdə az-çox əlaqəli obrazların, anlayışların təhlilinə tətbiq etmək olar. Onlardan birini nəzərdən keçirək:

**_Verilmiş əlamətlərdən nrçəsi N.Gəncəvinin "Xosrov və Şirin" poemasının qəhrəmanları Xosrov və Fərhadı fərqləndirən cəhətlərdir?_**

1) **_Əhdinə sadiqlik._**
2) **_Şirini əvvəldən axıradək saf məhəbbətlə sevmək._**
3) **_Əməyə müsbət münasibət._**
4) **_Sənətkara yüksək qiymət vermək._**

**_A – 1_**
**_B – 2_**
**_C – 3_**

***D – 4***
***E – heç biri***

Test düzgün tərtib edildikdə ayrı-ayrı bədii əsərlərin süjet xəttinin, məzmununun da nə dərəcədə mənimsənildiyini yoxlamaq olar. Nümunə üçün belə bir testə nəzər salaq:

***Sitat M.F.Axundovun "Aldanmış kəvakib" əsərindəki hansı obrazın dilindəndir?***

***"Bu ovqat ki, qibleyi-aləmin vücudu təsiri-kəvakibdən məhəlli xətərdir, mənim ürəyim tavadakı balıq kimi büryan olur..."***

***A – Zaman xan***
***B – Mirzə Sədrəddin***
***C – Axund Səməd***
***D – Mirzə Yəhya***
***E – Mövlana Cəmaləddin***

Yeri gəlmişkən, bir məsələni qeyd etməyi lazım bilirik. Əsərin məzmunu ilə bağlı belə parçaların xatırladılması son dərəcə incə məsələdir. Burada soruşulan hissə əsərin məzmunu, ideyası, obrazın xarakteri ilə sıx bağlı olmalıdır. Ötəri, məsələnin mahiyyəti ilə bir elə də əlaqəsi olmayan detalların soruşulması məqsədəuyğun deyil. Yuxarıda verdiyimiz parça ona görə xarakterikdir ki, "Aldanmış kəvakib" əsərində Şah Abbasın ətrafına yığışanların hərəsinin özünə məxsus eybəcərlikləri onların Şah qarşısındakı monoloqlarında açılır. Bu parçada Axund Səmədin yaltaqlığını göstərir.

Və yaxud:

***Q.Zakirin hansı təmsilindən götürülüb?***

***Guş etməyən***
***nasehlərin sözünə,***
***Toxunar aqibət bəla özünə.***
***Bir dəxi danışsa,***
***hər kim bihəngam,***
***Baş qilu-qaldan***
***qurtarmaz müdam.***

***A – "Aslan, Qurd və Çaqqal"***
***B – Dəvə və Eşşək"***
***C – "Tülkü və Qurd"***
***D – "Tülkü və Şir"***
***E – "Tısbağa, Qarğa, Kəsəyən və Ahu"***

Şeir parçası "Dəvə və Eşşək" təmsilinin məzmunu ilə sıx bağlıdır və əsərin ideyasını, oradan çıxan nəsihətamiz sonluğu əks etdirir.

Hər hansı mövzu, geniş götürsək, fənn şüurlu mənimsənilibsə, oradakı faktlar digər uyğun fənlərdəki faktlarla da, müqayisəv edilə və müvafiq əqli nəticə çıxarıla bilər.

***Belə qabiliyyəti aşkara çıxarmaq üçün bir test nümunəsi:***

***Yar, məskənim***
***astanamı, dərdimi?***
***Kamil bağban***
***Külü bağdan dərdimi?***
***A bimürvət,***
***dərdin mənim dərdimi?***
***Artırıb, yetirib***
***a yüzə-yüzə.***

***Birinci misranın son sözü hansı sıradakı bütün sözlərlə eyni kökə malikdir?***

***A – dərmək, dərd, dərgah***
***B – dərgah, dər (qapı), dərbədər***
***C – dərbədər, dərmək, dərgah***
***D – dər (qapı), dərviş, dərə***
***E – dərbədər, dərd, dərə***

Araşdırmalar göstərir ki, testin daha mürəkkəb formalarını axtarıb-tapmaq və tətbiq etmək mümkündür. Onlardan biri haqqında. Əvvəlcə yığcam ifadə edilmiş bir neçə mühakimə (fikir, mülahizə) verilir. Mühakimələrin sayı müxtəlif ola, bir və ya bir neçə mövzunu əhatə edə bilər. Bu mülahizələrin biri, bir neçəsi və ya hamısı düz, yaxud səhv verilir. Cavab verən onları bir-bir nəzərdən keçirir, düzgün və ya səhv olduğunu müəyyənləşdirir, sualın qoyuluşundan asılı olaraq düzgün cavab variantını qeyd edir. Faktlara fikir verək:

***Hansı bənddə səhv mühakimələrin hamısı sadalanıb?***

1) ***Ədəbiyyat nəzəriyyəsi bədii ədəbiyyatın inkişaf yollarını öyrənir;***
2) ***Ədəbiyyat tarixi ədəbiyyatın mahiyyətini, janrları, təsvir vasitələrini araşdırmaqla məşqul olur;***
3) ***Ədəbiyyatşünaslıq ədəbiyyat nəzəriyyəsini, ədəbiyyat tarixini və ədəbi tənqid sahələrini özündə birləşdirən elmdir;***
4) ***Ədəbi tənqid ədəbiyyata müasir baxımından qiymət verməkdə, oxucuya əsəri dərk etməkdə, yazıçıya səhvlərini başa düşməkdə kömək göstərir;***

***A – 1,2,3-cü hökmlər***
***B – 1 və 3-cü hökmlər***
***C – 1 və 2-ci hökmlər***

***D – heç biri səhv deyil***
***E – hamısı səhvdir.***

Daha mürəkkəb formanı nəzərdən keçirək:

***Aşağıdakı mülahizələrdən neçəsi səhvdir?***

1) ***"Hacı Qara" komediyasında Tükəz və Sona kimi müsbət obrazlarla yanaşı, bir neçə mənfi qadın obrazı da var;***
2) ***Aşıq Ələsgərin "Yaylaq", "Dağlar" şeirlərində təbiət gözəllikləri vəsf olunur;***
3) ***XIX əsrdə "Məcməüş-şüəra" (Şairlər yığıncağı) adlı ədəbi məclis Lənkəranda təşkil edimişdi;***
4) ***"Molla İbrahimxəlil kimyagər" komediyasında "nuxulular" adı altında bunlar nəzərdə tutulur: Hacı Nuru, Molla Salman, Səfər bəy, Şeyx Salah***
5) ***A.Bakıxanov, M.Ş.Vazeh və İ.Qutqaşınlı Azərbaycan maarifçiliyinin ədəbiyyat sahəsində ilk nümayəndələridir;***
6) ***C.Cabbarlının ilk şeiri 1916-cı ildə "Babayi-əmir" jurnalında çap olunub;***
7) ***S.Rəhimovun həcmcə ən böyük romanı "Saçlı"dır.***

***A – 2***
***B – 3***
***C – 4***
***D – 5***
***E – 6***

Bütün bu faktlar onu göstərir ki, ədəbiyyat fənnindən də düşündürücü testlər tərtib etmək olar və vacibdir.

***Bəşir Əhmədov***
***pedaqoji elmlər doktoru,***
***professor.***
***Akif Məmmədov***
***Pedaqoji elmlər namizədi***

***"Azadlıq" qəzeti 16 sentyabr, 1993***